# Əlcəzair portalı Prezident İlham Əliyevin Şuşada Vaqif Poeziya Günlərinin açılışında iştirakından yazıb

Əlcəzairin "Əl Hərir" portalı Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Şuşa şəhərində Vaqif Poeziya Günlərinin açılışında iştirakından yazıb.

AZƏRTAC-a istinadla yayımlanan xəbərdə qeyd olunub ki, Azərbaycanın dövlət başçısı tədbirin açılışındakı çıxışında qədim



mədəniyyət paytaxtı Şuşanın düşmən işğalından azad olunmasından, şəhərin dirçəldilməsindən, Heydər Əliyev Fondunun dahi şair Vaqifin vandal ermənilər tərəfindən dağıdılmış məqbərəsinin bərpasını öz üzərinə götürməsindən, Vaqif Poeziya Günlərinin və "Xarıbülbül" festivalının yenidən təşkilindən bəhs edib.

Materialda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşada dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışında iştirak etdikləri də xatırladılıb.

Xəbərdə həmçinin tədbirdən silsilə fotoşəkillər də yer alıb.

Azərbaycan.- 2021.- 3 sentyabr.- S.1.